

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 195 (21.605)

*18 oktyabr 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Oktyabrın 17-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbul təşkil edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib.

Azərbaycanın dövlət himni səslənib.

Prezident İlham Əliyev rəsmi qəbulda nitq söyləyib.

Dövlət başçısı deyib ki, iyirmi beş il bundan əvvəl – 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra O, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək “Sovet Sosialist” sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Prezident İlham Əliyev bildirib ki, iyirmi beş il böyük tarixdir. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Bizim gözəlləşən şəhərlər, abadlaşan regionlar və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı bunun əyani sübutudur. Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

## Naxçıvanda “Arıçılıq məhsulları – bal festivalı” keçirilmişdir

Oktyabrın 15-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Arıçılıq məhsulları – bal festivalı” keçirilmişdir.






Tədbirin aparıcıları qeyd etmişlər ki, bu il ərzində qədim tariximizi yaşadan Naxçıvanqalada 5 festival keçirilmişdir. “Yaradıcı əllər”, “Göycə”, “İstedadlı uşaqlar”, “Naxçıvan çörəkləri”, “Plov və Yallı” festivalları ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Arıçılıq insan məşğuliyyətinin ən qədim növlərindən olub, tarixən inkişaf etmiş gəlirli və olduqca faydalı təsərrüfat sahələrindən biridir. Azərbaycanda da arıçılıq və bal istehsalı ilə eramızdan əvvəlki dövrlərdən məşğul olunması haqqında tarixi mənbələrdə məlumatlar vardır. Arıçılıqla, balla bağlı yaranan zərbi-məsəllər, atalar sözləri də bu sahəyə tarixən göstərilən diqqətin nəticəsidir.

Naxçıvan Dövlət Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov çıxış edərək demişdir ki, Naxçıvanın coğrafi mövqeyi, biomüxtəlifliyi ilə seçilən əlverişli təbiəti, relyef quruluşu və məhsuldar torpaq örtüyü bu ərazidə qədim zamanlardan bir sıra təsərrüfat sahələrinin meydana gəlməsinə və inkişafına səbəb olmuşdur. Bu sahələrdən biri də xalqımızın təsərrüfat və məişət həyatında əsas yerlərdən birini tutan arıçılıqdır. Tarixi qaynaqlar göstərir ki, Naxçıvanda arıçılıq – vəhşi arı balı toplamaq, meşə arıçılığı və mütərəqqi arıçılıq kimi inkişafın bütün mərhələlərini keçmişdir. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonundakı Ballıqaya, Ordubad rayonundakı Arıtəpə və digər ərazilər bu yerlərin qədim arıçılıq məskənləri kimi məşhurlaşmasının göstəricisidir.

Qeyd olunmuşdur ki, XIX əsr və XX əsrin əvvəllərindən Naxçıvanda arıçılığın xüsusi təsərrüfat sahəsinə çevrildiyi, hətta bəzi təsərrüfatlarda böyük arıxanaların olması haqqında məlumatlar vardır. XIX əsr rus tədqiqatçısı V.Q.Qriqoryevin məlumatlarına görə həmin yüzilliyin 30-cu illərində Ordubad dairəsində əhalinin əksəriyyəti arıçılıqla məşğul olurdu. Tədqiqatçı N.N.Şavrov yazırdı ki, Ordubad qəzasında 3500 arı ailəsi saxlanılırdı. Həmin dövrdə K.A.Qorbaçev Ordubad ərazisində 2 arı cinsinin olması haqqında məlumat vermişdir. Arıçılığın inkişafı sahəsində görülən işlərdən danışan Elsevər Əsədov bu sahənin inkişafına göstərilən diqqətə görə arıçılar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak etmiş, Naxçıvan balının sərgi-satışı ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, festivala muxtar respublikanın bütün rayonlarından olan 210 arıçı tərəfindən 10 tondan artıq bal, vərəmum, çiçək tozcuğu, güləm, arı südü və digər arı məhsulları çıxarılmışdır. Həmçinin festivalda bal arağı, bal şərbəti və baldan hazırlanan müxtəlif şirniyyatlar da nümayiş olunurdu. Son illər Naxçıvanda arıçılığın inkişafı sahəsində mühüm tədbirlər görülmüş, arı ailələrinin sayı artırılmışdır. Əgər muxtar respublikada 2000-ci ildə 12 min 620 arı ailəsi vardısa, hazırda muxtar respublikada arı ailələrinin sayı 70 mindən çoxdur. Naxçıvan Muxtar Respublikasının mövcud bitki örtüyü burada 100 mindən çox arı ailəsi saxlamağa imkan verir və onlardan bir il ərzində 2000 tondan artıq əmtəəlik bal toplamaq mümkündür.

Tənənəm, Havuş, Tivi, Buzqov, Şurud, Kükü və digər kəndlərin adı ilə tanınan Naxçıvan balı öz dadı, qoxusu, görünüşü, həmçinin bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda qonşu ölkələrdə yüksək qiymətləndirilir. Tərkibi antioksidantlar, mineral maddələrlə zəngin olan Naxçıvan balı güclü mikrob, virus, göbələk və iltihab əleyhinə, yarasağaldıcı, bərpaedici, anesteziyaedici xüsusiyyətləri də özündə cəmləşdirib. Bu xüsusiyyətlərlə muxtar respublikanın florasının özünəməxsusluğu və endemik bitkilərlə zənginliyi bir-birini tamamlayır.




Ali Məclisin Sədri arıçılarla söhbət etmiş, onların qayğıları ilə maraqlanmışdır.

Şərur rayon Düdəngə kənd sakini, arıçı İbrahim Qasımov minnətdarlıq edərək demişdir: Festivalın keçirilməsi Naxçıvan balının tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahəyə göstərilən dəstək, arı ailələrinin paylanması, baytarlıq xidmətinin təşkili və bazara rahat çıxış imkanının olması arıçılığın inkişafına və bal istehsalının artmasına imkan verir. Təsərrüfatların genişləndirilməsi üçün həm dövlət dəstəyi, həm də mövcud təbii şərait vardır. Gəlirli sahə olan arıçılıqla bundan sonra da məşğul olacaq, məhsul istehsalını artıracağıq.

Ali Məclisin Sədri arıçılara təşəkkür etmiş, arıçılığın elmi şəkildə öyrənilməsi və çoxaldılması, arıçıların iştirakı ilə konfransların keçirilməsi və onların məlumatlandırılması, muxtar respublikanın rayonlarında arıçılıq ləvazimatlarının və dərmanlarının satış mağazalarının yaradılması, bu sahənin inkişafında yeni texnologiyaların tətbiqi, balın sənaye üsulu ilə qablaşdırılması və ixracı barədə aid təşkilatlara tapşırıqlar vermişdir.

Festivalda Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı rəngarəng proqramlarla çıxış etmişdir. İki gün davam edəcək festivalda arıçılar arasında “Ən yaxşı arıçılıq məhsulları – bal” nominasiyası üzrə müsabiqə keçiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan televiziyası internet üzərindən yayıma başlamışdır



Oktyabrın 17-də – Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü ərəfəsində Naxçıvan televiziyası internet üzərindən yayıma başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli çıxış edərək demişdir ki, Naxçıvan teleradiosu son illər əsl inkişafa qovuşmuş, maddi-texniki bazası xeyli gücləndirilmiş, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, teleradio ən müasir texniki avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublikada yeni yayım avadanlıqlarının tətbiqi nəticəsində analoq yayım yüksək keyfiyyətli rəqəmsal yayımla əvəzlənmiş, Naxçıvan televiziyasının yüksək keyfiyyətli HD formatda yayımına başlanmışdır. Ötən dövrdə 50-dən artıq kadr, o cümlədən Naxçıvan Dövlət Universitetinin televiziyaya hamiliyə verilmiş Jurnalistika ixtisası üzrə gənclər sınaq müddəti dövründə hazırlanaraq Naxçıvan teleradiosunda işə götürülmüşlər. Televiziyada əsaslı struktur islahatları aparılmış, Uşaq, gənclər və idman və Səhər verilişləri redaksiyaları yaradılmışdır. Bütün bunların nəticəsidir ki, Naxçıvan televiziyasının istehsalı olan telemateriallar ümumi efirin 60 faizini təşkil edir.





Naxçıvan televiziyasının İncəsənət və musiqi verilişləri redaksiyasının baş redaktoru Təhminə Babayeva demişdir ki, Naxçıvan teleradiosu özünün yeni inkişaf dövrünü yaşayır. Yeni internet saytının yaradılması və onlayn yayımın təşkili də televiziyamızın tarixində əlamətdar hadisədir. Bizim üzərimizə düşən əsas vəzifə keyfiyyətli teleradio verilişləri hazırlamaqdan ibarətdir. Təhminə Babayeva yaradılan şəraitə və yaradıcı gənclərə göstərilən qayğıya görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmiş, bundan sonra da əzmlə çalışacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü və Naxçıvan televiziyasının internet üzərindən yayıma başlaması münasibətilə kollektivi təbrik edərək demişdir: Naxçıvan televiziyasının internet üzərindən yayıma başlaması dövlət müstəqilliyinin bəhrəsidir. Eyni zamanda bu, 25 ildən artıq blokada şəraitində yaşayan muxtar respublikada informasiya blokadasının yarılması deməkdir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan teleradiosu 1956-1996-cı illərdə Azərbaycan teleradiosunun kanalı üzərindən gün ərzində 2 saat yayımlanırdı. Ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvanda televiziya yayımında da çətinliklər yaranmışdı. Həmin dövrdə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə informasiya blokadasının aradan qaldırılması sahəsində bir sıra tədbirlər həyata keçirildi, Azərbaycan televiziyasının muxtar respublikada yayımı bərpa edildi. 1996-2016-cı illərdə isə Naxçıvan televiziyası böyük inkişaf yolu keçmiş, teleradio müstəqil kanala keçirilmiş, burada müasir avadanlıqlar quraşdırılmış, efir vaxtı 17 saata




çatdırılmış, televiziya böyük tamaşaçı kütləsi toplamışdır.

Ali Məclisin Sədri demişdir: Televiziyanın internet üzərindən yayımlanması geniş imkanlar yaradır. Dünyanın istənilən yerində internetlə televiziyanı izləmək mümkündür. Bu da televiziyanın yayımlandığı yerin tanıdılmasına, həmin yerin inkişafı, insanların həyat səviyyəsi, mədəniyyəti, tarixi-mədəni irsi və milli dəyərləri haqqında məlumatların yayılmasına imkan verir. Müasir dövrdə insanlar o yerlərə daha çox səyahət edirlər ki, orada sabitlik, inkişaf və tarixi-mədəni abidələr var. Hər bir televiziya əməkdaşının üzərinə düşən əsas vəzifə də Naxçıvan Muxtar Respublikasındakı inkişafı, sabitliyi, milli dəyərlərimizi və tarixi-mədəni irsimizi təbliğ etməkdən, dünyaya tanıtmaqdan ibarət olmalıdır. Bu gün muxtar respublikanın aid təşkilatları və gənclərimiz Naxçıvanın internet üzərindən tanıdılması sahəsində ardıcıl tədbirlər görür, dostluq əlaqələri yaradılır, muxtar respublika haqqında məqalələr yazılır.

Ali Məclisin Sədri internet üzərindən Naxçıvan Muxtar Respublikasını tanıdan və təbliğ edən gənclərə, hər bir muxtar respublika sakininə təşəkkürünü bildirərək demişdir: Naxçıvan televiziyasının yayımladığı hər bir veriliş xarici tamaşaçılarda Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası barədə, insanların həyat səviyyəsi, tariximiz, milli-mədəni irsimiz haqqında fikir yaradacaqdır. Ona görə də hər bir əməkdaş işə məsuliyyətlə yanaşmalı, verilişlər hazırlanarkən mötəbər mənbələrə, xüsusilə muxtar respublikada nəşr olunan kitablara istinad olunmalı, ədəbi dil normaları qorunmalı, hər bir sözdən yerində və məqamında istifadə olunmalı, fikir tamaşaçıya dolğun çatdırılmalıdır. Televiziya məktəb qədər vacib sahədir. Ona görə də televiziyanın qarşısında duran əsas vəzifələrdən biri də muxtar respublikanı tanıtmaqla yanaşı, həm də gənclərə torpağa bağlılıq, vətənpərvərlik hisslərini aşılamaqdan ibarətdir. Televiziyada maarifçilik işi bundan sonra da davam etdirilməli, proqram tərtibatında ünvanlılıq gözlənilməli, hər yaş kateqoriyasından olan tamaşaçılar üçün verilişlər hazırlanıb yayımlanmalı, qədim tariximiz, zəngin mədəniyyətimiz və milli dəyərlərimiz geniş təbliğ olunmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə əminliyini bildirmiş, qədim Azərbaycan torpağı olan Naxçıvanın olduğu kimi tanıdılmasında kollektivə yaradıcılıq uğurları arzulamışdır.

Sonra Ali Məclisin Sədri televiziyada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, Naxçıvan televiziyasının internet üzərindən yayımı ilə bağlı kadr hazırlığı, maddi-texniki bazanın möhkəmləndirilməsi və yaradıcılıq məsələləri sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə teleradionun sistem otağına ehtiyat siqnalçevirici, arxiv üçün 80 terabaytlıq yeni server alınıb quraşdırılmış, arxivin həcmi 120 terabayta çatdırılmışdır. Tədbirlərin çəkilişi, montajı və yayımı üçün ən son texnologiyaya əsaslanan 2 rəqəmsal videokamera dəsti, 2 videomontaj dəsti və 1 efirə çıxış avadanlığı alınmışdır. Bundan başqa, kran kamera üçün yaddaş və hərəkət qurğuları, verilişlərə əvvəlcədən baxış üçün mobil elektron lövhə də alınmış, yeni çəkiliş pavilyonları yaradılmış, müasir virtual studiya qurulmuş, bütün pavilyonlarda yeni səs və işıq sistemləri quraşdırılmışdır. Həyata keçirilən tədbirlər çərçivəsində 4 videomontaj və 5 səsyazma otağı yaradılmış, yeni qurulan montaj otaqlarında 3 yeni videomontaj dəsti quraşdırılmışdır. Teleradioda kadr hazırlığı sahəsində də tədbirlər görülmüş, kinooperatorlar, rejissorlar və aparıcılar üçün təkmilləşdirmə kursu keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov Naxçıvan televiziyasının yeni internet saytı barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, Naxçıvan televiziyası üçün ***www.naxcivantv.az*** internet saytı hazırlanaraq serverdə yerləşdirilmiş və internet üzərindən yüksək keyfiyyətli HD yayımı təşkil edilmişdir. Saytda “Haqqımızda”, “Redaksiyalar”, “Proqram”, “Xəbərlər”, “Videoarxiv”, “Anonslar”, “Əlaqə”, “Canlı yayım və arxiv” bölmələri yaradılmışdır. Göstərilən bölmələrin hər birinə aidiyyəti üzrə məlumatlar əlavə olunmuşdur. Əsas səhifədə yer alan “Anonslar”, “Televernisaj və videoçarxlar”, “Layihələr”, “İctimai-siyasi”, “Turizm” bölmələrində olan məlumatlar gündəlik yenilənir, rəsmi xəbərlər bölməsində gündəlik rəsmi xəbərlər yerləşdirilir. Birinci səhifədə xəbərlər üç dildə – Azərbaycan, ingilis və rus dillərində başlıqlarla göstərilmişdir. Saytda televiziyanın bir həftəlik proqramı yerləşdirilmiş və sayğac qoyulmuşdur.

İnternet istifadəçiləri “Canlı yayım və arxiv” bölməsinə keçid etməklə Naxçıvan televiziyasını internet üzərindən birbaşa izləyə biləcəklər. Tamaşaçılar saytın arxivində televiziyanın son 7 gündəki efir materiallarını da izləmək imkanına malikdirlər.

Ali Məclisin Sədrinə son dövrlərdə alınan ən son texnologiya nailiyyətləri olan videoçəkiliş aparatları, böyük tutuma malik yaddaş qurğuları və səsyazma avadanlıqları barədə də məlumat verilmişdir.

Sonra kollektivlə görüşən Ali Məclisin Sədri Naxçıvan televiziyasının müasir maddi-texniki bazaya malik olduğunu bildirmiş, yaradılan şəraitdən səmərəli istifadə olunması və mütəxəssis hazırlığı barədə tapşırıqlar vermişdir.

Binadakı iş otaqları və qazanxana da təmir olunmuş, yeni havalandırma xətti çəkilmiş, qarajlar və giriş qapısı yenidən qurulmuş, elektron keçid aparatı və təhlükəsizlik kameraları quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yeni çap avadanlıqları quraşdırılmışdır





Muxtar respublikada nəşriyyat işinin müasir tələblər səviyyəsində qurulması diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən işlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ən müasir çap avadanlıqları alınaraq quraşdırılmış, birliyin maddi-texniki bazası gücləndirilmişdir.

Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində quraşdırılan yeni çap avadanlıqlarına baxmışdır.

Məlumat verilmişdir ki, nəşriyyatda "KBA Rapida 75-4" markalı B2 formatlı ən müasir ofset çap maşını, rəqəmsal monoxrom yüksəksürətli rizoqraf çap avadanlığı, professional tamrəngli çoxfunksiyalı rəqəmsal çap avadanlığı və soyuq laminasiya avadanlığı quraşdırılaraq istehsal prosesinə hazır vəziyyətə gətirilmişdir. Müasir ofset çap maşınının gücü saatda 16 min çap vərəqidir. Nəşriyyatda cildləmə prosesi də tam avtomatlaşdırılmış, rəngayırma otağının avadanlıq hissəsi işçi heyətdən şəbəkə arakəsməsi vasitəsilə ayrılmış, çap maşınları üzrə məhsulun qiymətləri hazırlanaraq ayrıca guşədə yerləşdirilmişdir.

Yeni çap avadanlıqlarının quraşdırılması sifarişçinin istəyinə uyğun olaraq istənilən ölçüdə, rəngli və ya ağ-qara formatda kitab, jurnal, qəzet, buklet və digər məhsulların çap olunmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri nəşriyyatın imkanlarından səmərəli istifadə olunmasının və mütəxəssis hazırlığının diqqətdə saxlanılmasının vacibliyini bildirmiş, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin internet saytının yaradılması barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Müstəqil bir dövlətə sahib olmaq, öz müqəddəratını və taleyini müstəqil şəkildə təyin etmək bir xalqın əldə edə biləcəyi ən böyük nailiyyətdir. Bir millətin qazana biləcəyi digər nailiyyətlər yalnız müstəqil dövlətə sahib olduqda mümkündür. Təsadüfi deyildir ki, dünyada 5000-ə yaxın xalq mövcud olduğu halda cəmi 200 dövlət var. Çünki Azərbaycan xalqı tarixboyu özünün dövlətçilik ənənələrinə malik olmuş, işğalçılara və imperializmə qarşı mübarizə aparmış və təkcə XX əsrdə iki dəfə öz müstəqilliyini əldə edə bilmişdir.***

# Müstəqilliyimiz əbədidir

XX əsrin əvvəllərində elan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay çəksə də, Azərbaycanın adı Şərqin və Türk dünyasının tarixinə ilk respublikanın qurulduğu ölkə kimi düşmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" Sərəncamında bu barədə deyilir: ***"Müsəlman Şərqində ilk demokratik respublika olmuş Cümhuriyyətin bayrağını, himni və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May gününün dövlət bayramı səviyyəsində qeyd edilməsi Azərbaycan Respublikasının 1918-ci ildə imzalanmış İstiqlal bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür".***

XX əsrin sonlarında Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etmişdir. Bu müstəqillik XX əsrin 80-90-cı illərində dünyada baş verən ictimai-siyasi proseslərin və Azərbaycan xalqının müstəqillik uğrunda əzmkar mübarizəsinin nəticəsi olmuşdur. Məlumdur ki, XX əsrin 80-ci illərinin sonunda keçmiş SSRİ-də siyasi, ictimai, iqtisadi böhran dövrü başlamış, nəticədə isə ittifaq respublikalarında milli azadlıq hərəkatlarının güclənməsinə şərait yaranmışdır. Azərbaycanın müstəqilliyə hazırlanması isə daha əvvəl, əsrin 70-80-ci illərindən – ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdən başlamışdır. O zaman ulu öndər böyük uzaqgörənliklə hərbi, iqtisadi, sosial, ideoloji tədbirlərin həyata keçirilməsinə nail olmuş, beləliklə də Azərbaycanın gələcək müstəqilliyi üçün təməlləri hazırlamışdır. Hələ Sovet dövlətinin kifayət qədər güclü olduğu və milli düşüncəli insanlara qarşı barışmaz mövqe nümayiş etdirdiyi bir dövrdə dahi öndərin neçə-neçə Azərbaycan ziyalılarını qoruduğu, onları sovet zindanlarında çürüməkdən xilas etdiyi hamımıza yaxşı məlum olan həqiqətdir. Ümummilli lider Heydər Əliyev təzyiqlərə məruz qalan belə insanları müxtəlif vasitələrlə qorumaqla, yüzlərlə Azərbaycan gəncinin dünyanın nüfuzlu ali məktəblərində təhsil almasına nail olmaqla gələcək müstəqil Azərbaycan üçün kadr potensialını hazırlamışdır.

### Dövlət müstəqilliyinin təməlləri Naxçıvanda qoyulmuşdur

Hələ 1990-cı ilin iyul ayı idi. Müstəqilliyin elan edilməsinə 1 ildən də artıq müddət qalırdı və hələ o zaman da çoxları SSRİ-nin süquta uğrayacağına, ittifaqın dağılacağına inanmırdı. Ulu öndərin Naxçıvana qayıdışı Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçki kampaniyası dövrünə düşmüşdü. Naxçıvan əsl xilaskarın kim olacağını artıq çoxdan gördü. Məhz bunun nəticəsi idi ki, keçiriləcək seçkilərdə insanların təkidli tələbləri ilə görkəmli dövlət xadimi Heydər Əliyevin namizədliyi irəli sürülmüşdür. 1990-cı il sentyabr ayının 30-da Azərbaycan SSR xalq deputatlarının və yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri keçirilmişdir. Seçkilərin birinci turunda ulu öndərimiz 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR xalq deputatı, 2 nömrəli M.F.Axundov seçki dairəsindən isə Naxçıvan MSSR xalq deputatı seçilmişdir. Bu seçim Azərbaycanın gələcək taleyini dəyişəcək bir seçim idi. O zamana qədər, əsasən, ürəklərdə, düşüncələrdə və şüarlarda səslənən müstəqillik amalları tarixi və hüquqi sənədlər üzərinə köçürülmüş oldu. Bu cəhətdən təkcə 1990-cı il noyabr ayının 17-21 tarixlərində keçirilən Naxçıvan Ali Sovetinin sessiyasındakı tarixi qərarları xatırlatmaq kifayətdir: "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" .

Adını çəkdiyimiz birinci qərarla Naxçıvan "sovet" və "sosialist" sözlərindən imtina etmişdir. Bu, nə demək idi? Bu, o demək idi ki, Naxçıvan Azərbaycan üçün və ümumilikdə, ittifaq tərkibindəki digər respublikalar üçün bir presedent yaratmışdı. Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Ali Məclis adlandırılmışdır. Sonradan bu addım, ümumilikdə, Azərbaycan səviyyəsində parlamentarizm üçün bir presedentə çevrilmiş və Azərbaycan Ali Soveti Milli Məclis adlandırılmışdır.

"Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" adlanan ikinci qərar isə XX əsrin əvvəllərində yaranmış Azərbaycan Xalq Cümhuriyyəti ilə XX əsrin sonunda müstəqilliyini əldə edəcək Azərbaycan Respublikasının tarixi varisliyini müəyyən etmişdir. Bundan sonra yeni qəbul olunmuş Dövlət Bayrağı zala gətirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir.

1991-ci ilin 14 yanvarında isə Naxçıvan Ali Məclisindəki tarixi çıxışı ilə ulu öndər Naxçıvanın əsarətin bərpası üçün hazırlanmış yeni ittifaq müqaviləsindən imtina etdiyini bəyan etmişdir. Bu müqavilənin təkcə Naxçıvan üçün deyil, ümumilikdə, Azərbaycan üçün nə qədər böyük bir cinayət olduğunu açıq şəkildə bildirmişdir: "Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir. Son üç ildə başımıza gələnlər tam açıq şəkildə göstərdi ki, bizim bu ittifaqdan nicatımız yoxdur".

Ulu öndər bu çağırışı təkcə Naxçıvan miqyasında deyil, ümumilikdə, ölkə miqyasında da etmişdir. Azərbaycan Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında xalqımızın böyük oğlu Heydər Əliyev ümumittifaq referendumda iştirak etməyin əleyhinə çıxmışdır.

1991-ci il sentyabr ayının 3-də ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Naxçıvanın müstəqil Azərbaycan Respublikasının elan edilməsinə gedən yolda daha inamla, daha qətiyyətlə addımlamasına səbəb olmuşdur.

Nəhayətində baş verən proseslərin məntiqi nəticəsi olaraq Azərbaycan Ali Soveti 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Lakin müstəqilliyin əldə edilməsi ilə iş bitmirdi. İndi qarşıda yeni dövrün tələblərinə uyğun olaraq dövlət idarəçilik sistemini qurmaq, iqtisadi və sosial islahatları həyata keçirmək, Ermənistanın Azərbaycana qarşı yönəlmiş hərbi təcavüzünün qarşısını almaq lazım idi. İnsanları azadlıq uğrunda meydanlara çıxaran çağırışlar mərhələsi bitmişdi. İndi sözdən real əməli fəaliyyətə keçmək lazım idi. Lakin təəssüf ki, nə keçmiş ittifaqdanqalma nomenklatura, nə də yeni qüvvələr bu idarəçiliyi qurmaq, yeni dövrün tələblərinə uyğun iqtisadi, sosial siyasət yürütmək, yaxın və uzaq xariclə münasibətləri qaydasına salmaq beynəlxalq dəstək əldə etmək, ağır müharibənin şərtlərini Azərbaycanın xeyrinə dəyişmək iqtidarında deyildilər. Və indi təəssüflə xatırlamalı oluruq ki, Azərbaycan üçün qazanılmış müstəqillikdən sonrakı "itirilmiş illər" mərhələsi başlamışdı.

### İqtisadi cəhətdən müstəqil olmayan heç bir ölkə siyasi cəhətdən tam müstəqil ola bilməz

Müstəqilliyin siyasi təməlləri olduğu kimi, iqtisadi təməlləri də atılmalıdır. Başqa sözlə desək, iqtisadi müstəqilliyə sahib olmadan siyasi müstəqilliyini elan etmiş heç bir ölkəni gerçək müstəqil ölkə kimi xarakterizə etmək olmaz. Bu səbəbdən də ümummilli lider Naxçıvanda Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən qərarların qəbul edilməsinə nail olmaqla yanaşı, həm də iqtisadi islahatların həyata keçirilməsi üçün məqsədyönlü addımlar atmışdır. İqtisadi islahatlara da Azərbaycanda ilk dəfə olaraq Naxçıvanda başlanılmışdır. 1992-ci il aprel ayının 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmişdir. Bundan əlavə, muxtar respublikada o dövr üçün çox uğurlu hesab ediləcək torpaq islahatları aparılmışdır.

### Ordun varsa, yurdun var

Ulu Dədə Qorquddan yadigar qalan bir söz var. Deyir ki, torpağı əkməsən qorumağa, qorumasan əkməyə dəyməz. Reallaşdırılan iqtisadi islahatlarla bu torpaq onu əkəcək olan vətəndaşa verilmişdi. Lakin qorunmayan torpağı əkməyə dəyməzdi. Söhbət erməni işğalından və havadarlarının dəstəyi ilə erməni təcavüzündən gedirdi. Qarabağdakı şəhər və rayonlarımızın bir-bir işğal edildiyi zamanda bu acımasız müharibədən Naxçıvan da öz nəsibini alırdı. Ermənilər Naxçıvanın müxtəlif kəndlərinə də hücumlar etməyə çalışır və ən əsası muxtar respublikanı blokada vəziyyətində saxlamaqla mənfur niyyətlərinə nail olmağa cəhd edirdilər. Hələ ki, milli ordunun olmaması, dağılmış imperiyanın işğalçı qoşun hissələrinin Azərbaycan ərazisində, o cümlədən Naxçıvanda varlığını qoruyub saxlaması müstəqilliyimizi sual altında saxlayırdı. Belə bir şəraitdə, 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılmış, oktyabrın 26-da ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında Naxçıvan Muxtar Respublikası ərazisindəki qoşun hissələrinin statusu haqqında qərar qəbul edilmişdir. 1991-1992-ci illər ərzində aparılmış danışıqlar və nümayiş etdirilmiş möhkəm siyasi iradənin nəticəsi olaraq 1992-ci il avqustun 18-də Rusiya ordusunun hərbi hissələri Naxçıvan Muxtar Respublikasını tərk etmişdir. 1992-ci ilin avqust-sentyabr aylarında isə 41-ci Sərhəd Dəstəsi ləğv edilmiş, ilk milli sərhəd qoşunlarının yaradılmasına da Naxçıvandan başlanılmışdır.

### Müstəqilliyin ideoloji prinsiplərinin müəyyənləşməsi də Naxçıvanla bağlıdır

Ulu öndərin böyük uzaqgörənliyi sayəsində iqtisadi müstəqilliyin də təmin olunması üçün ilkin addımlar atılmışdı. Onun atdığı hər bir addım Azərbaycanımızın qorunmasına yönəlmişdi. Azərbaycanda isə real parçalanma təhlükəsi vardı. Ultra-millətçi və ultra-dinçi ideologiyaların ölkəyə ayaq açması, müstəqil dövlətimizin ideoloji yolunun dəqiq müəyyənləşməməsi bu parçalanmanı daha da sürətləndirirdi. Belə bir məqamda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyası yaradılmışdır. Beləliklə, yeni Azərbaycanın yeni ideoloji yolu kimi bu yurdu sevən hər bir insanı sıx birləşdirə biləcək böyük Azərbaycançılıq yolu müəyyənləşdirilmişdir.

### Ana Vətən çağırır...

Buruluşanda istiqamətini müəyyənləşdirə bilməyən Azərbaycan adlı gəminin ən sağlam yelkəni Naxçıvan idi. Və artıq batmaq taleyi ilə barışmış Azərbaycan adlı gəmidə olan bütün sərnişinlərin nəzərləri bura – Naxçıvana dikilmişdi. MÜSTƏQİLLİYİMİZİN BÖYÜK MEMARI Heydər Əliyevi Azərbaycan xalqı çağırırdı. Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytarmaq üçün, Azərbaycanı qurtarmaq üçün 1993-cü ilin iyununda Bakıya qayıtmışdır. Ulu öndərin əsasını qoyduğu təməllər üzərində bu gün gerçək siyasi, iqtisadi və ideoloji müstəqilliyini əldə etmiş Azərbaycan və bu müstəqilliyin əldə olunmasındakı misilsiz xidmətlərinə görə qürur duya biləcək Naxçıvan var. Artıq 25 ildir ki, biz müstəqilik

*Ardı 4-cü səhifədə*

və Naxçıvan bu müstəqilliyin gerçək ruhunu daşıyır.

Təməl daşları qədim diyarımız Naxçıvanda qoyulan müstəqillik xalqımızı firavanlığa qovuşdurmuş, Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Müstəqilliyin bəhrələrini ölkəmizin hər yerində görməkdəyik. Ötən 25 il ərzində muxtar respublikada həyatın bütün sahələrində görülən işlərə qısaca nəzər salmaq kifayətdir. Tarix üçün çox da böyük müddət olmayan bu qısa zaman kəsiyində Naxçıvan yenidən qurulmuşdur. Bu dəyişikliyi, bu yeniliyi muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri ilə yanaşı, bütün rayon mərkəzlərində, ucqar dağ və sərhəd yaşayış məntəqələrində görmək olar. Statistik rəqəmlərə baxsaq, görərik ki, bu dövrdə Naxçıvanda 442 sənaye müəssisəsi fəaliyyətə başlamış, üç min altı yüz kilometrdən çox avtomobil yolu, 163 körpü tikilmişdir. Elm və təhsil müəssisələri üçün 300-dən artıq yeni binalar inşa olunmuşdur. 443 mədəniyyət, 160 səhiyyə ocağı öz fəaliyyətini müasir arxitektura üslublu binalarda davam etdirir. Bir rayon yaradılmış, 4 qəsəbə, 133 kənd mərkəzi istifadəyə verilmişdir. 4000-dək istehsal, xidmət və digər infrastruktur sahələri yaradılmışdır. Bütün bunlar isə müstəqilliyin bəhrələridir.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2016-cı il tarixli Sərəncamında deyildiyi kimi: ***"Ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, iqtisadiyyatımız inkişaf etmiş, mədəniyyətimiz zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir"***.

**"Şərq qapısı"**

# Dövlət müstəqilliyimizin 25-ci ildönümü münasibətilə ulu öndərimizin heykəl və büstləri, Şəhidlər xiyabanları ziyarət olunub

## Şərur rayonu



Dünən muxtar respublikamızın bütün rayonlarında müstəqilliyimizin 25 ili böyük coşqu ilə qeyd olunub. İctimaiyyət nümayəndələri ulu öndərimiz Heydər Əliyevin abidəsini və Şəhidlər xiyabanlarını ziyarət ediblər. Çünki müstəqilliyimizin qazanılmasına görə ümummilli liderimiz Heydər Əliyevə və bu müstəqillik uğrunda canından keçən şəhidlərimizə borcluyuq.

Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da müstəqilliyimizin 25 ili qeyd edilib. Şərur şəhərindəki Şəhidlər xiyabanı və ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunub.

Müstəqil Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızın hər yerində aparılan genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri şəhər və kəndlərimizin görkəmini əsaslı şəkildə dəyişib, yüzlərlə istehsal və emal müəssisələri işə salınıb, sözün həqiqi mənasında, yeni Naxçıvan qurulub.

Bu inkişafdan Şərur rayonuna da xeyli pay düşüb. Ötən müddət ərzində rayon mərkəzi və 45-ə qədər kənd yeni görkəm alıb, yaşayış məntəqələrində məktəblər, səhiyyə və mədəniyyət müəssisələri tikilib, onların maddi-texniki bazaları gücləndirilib. Yol, rabitə, elektrik və qaz infrastrukturları yenilənib, suvarma qurğuları istismara verilib.

Görülən və həyata keçirilməsi davam etdirilən belə tədbirlər hesabına Şərur bu gün müasir Azərbaycan rayonunun canlı nümunəsinə çevrilib. Bütün bunlar ulu öndər Heydər Əliyevin əbədiliyini təmin etdiyi müstəqilliyimizin bəhrələridir. Ona görə də şərurlular onlara müstəqil dövlətdə yaşamaq kimi böyük bir sərvət bəxş etmiş ulu öndərə daim minnətdardırlar.

* * *

## Ordubad rayonu

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunda xalqımızın böyük oğlunun yadigarlarını, müstəqilliyimizin bəhrələrini saymaqla qurtaran deyil. Rayon iqtisadiyyatının inkişaf etdirilməsi, bölgədə yeni iş yerlərinin yaradılması, insan amilinə xidmət edən digər məqsədyönlü tədbirlərin həyata keçirilməsi ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb. Mənsub olduğu xalqı ürəkdən sevən, onun layiq olduğu səviyyədə yaşamasını təmin edən, insanların problemlərinə həssaslıqla yanaşan dahi şəxsiyyət Heydər Əliyevin müstəqilliyimizin qazanılması və möhkəmləndirilməsi naminə atdığı qətiyyətli addımlar ordubadlılar tərəfindən hər zaman dərin hörmət və ehtiramla xatırlanır.



Ordubadlılar dərindən dərk edirlər ki, rayonun inkişafı müstəqilliyimizin qazanılmasından ötən 25 il ərzində görülən genişmiqyaslı işlərin, muxtar respublikada Heydər Əliyev ideyalarının reallaşdırılması nəticəsində mümkün olub.

Dünən rayon ictimaiyyətinin nümayəndələri Ordubad şəhərinin Heydər Əliyev prospektindəki Şəhidlər xiyabanına gələrək şəhid məzarları üzərinə tər qərənfillər düzüblər.

Sonra görkəmli dövlət xadimi Heydər Əliyevin rayon mərkəzindəki büstü tədbir iştirakçıları tərəfindən ziyarət edilib.

* * *

## Kəngərli rayonu

*Tarixi ədalətin qələbə çaldığı – müstəqilliyimizin bərpa edildiyi gün ərəfəsində Kəngərli rayonunun sakinləri də ulu öndər Heydər Əliyevin rayon mərkəzində əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyublar, şəhidlər abidəsini ziyarət ediblər.*



2004-cü ildə yaradılan Kəngərli rayonunda görkəmi ilə gözoxşayan 21 inzibati bina çox qısa zamanda tikilib istifadəyə verilib. Rayonun Qıvraq qəsəbəsində, Qarabağlar, Xok, Şahtaxtı, Çalxanqala, Yurdçu, Qabıllı, Böyükdüz, Xıncab, Təzəkənd və Yeni Kərki yaşayış məntəqələrində nümunəvi kənd mərkəzləri yaradılıb, yeni inzibati binalar tikilib istifadəyə verilib. Bu binalarda fəaliyyət göstərən bütün təşkilatlar üçün nümunəvi iş şəraiti yaradılıb.

Rayonun yol infrastrukturunda mühüm işlər görülüb, 39,2 kilometrlik Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu yenidən qurularaq əhalinin istifadəsinə verilib. Bütün yaşayış məntəqələrində kənddaxili yollar yenidən qurularaq asfalt örtük salınıb.

Bütün bunlar müstəqilliyin bəhrələri, ulu öndər Heydər Əliyev siyasi xəttinə sədaqətin təntənəsidir.

* * *

## Şahbuz rayonu



*Müstəqillik günü Şahbuz rayonunda da qeyd olunub.*

Dünən bu münasibətlə rayon ictimaiyyətinin nümayəndələri Şahbuz şəhərindəki Şəhidlər abidə kompleksini ziyarət edərək şəhidlərə dərin ehtiramlarını bildirib, abidə önünə tər qərənfillər düzüblər. Sonra müstəqil Azərbaycanın memarı, ulu öndər Heydər Əliyevin Şahbuz şəhərinin mərkəzindəki büstünü ziyarət edən tədbir iştirakçıları xalqımızın bugünkü xoşbəxt həyata qovuşması, ölkəmizin dünya arenasında söz sahibi olmasındakı xidmətlərinə görə dahi rəhbərə öz ehtiramlarını ifadə ediblər.

Müstəqillik illərində Şahbuz qəsəbəsinin böyüyərək şəhər statusu alması, rayonun ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsi, bütün kəndlərə gedən avtomobil yollarının ən yüksək səviyyədə yenidən qurulması, kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş kənd və xidmət mərkəzlərinin yaradılması, modern məktəblərin, səhiyyə və mədəniyyət obyektlərinin istifadəyə verilməsi ilə keçilmiş böyük inkişaf yolu dövlət müstəqilliyimizin təkcə bir rayonun sosial-iqtisadi həyatını necə dəyişdirdiyinin qısa xülasəsidir. Ötən illərdə qazandığımız uğurlar məhz ulu öndər Heydər Əliyevin tarixi nailiyyətimiz olan müstəqilliyimizin qorunub saxlanılmasındakı misilsiz xidmətləri sayəsində mümkün olub.

## Babək rayonu



*Dünən Babək rayon ictimaiyyətinin nümayəndələri Babək qəsəbəsindəki Şəhidlər memorial kompleksinin qarşısına gül dəstələri qoyaraq Azərbaycanın azadlığı, müstəqilliyi uğrunda şəhid olanların xatirəsini ehtiramla yad ediblər.*

Tədbir iştirakçıları rayon İcra Hakimiyyətinin qarşısında ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək müstəqil Azərbaycanın banisinin əziz xatirəsini böyük məhəbbətlə anıblar.

Babək rayonunun yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Rayon ötən 25 il ərzində böyük bir inkişaf yolu keçib. Kənd təsərrüfatında uğurlar qazanılmasında mühüm əhəmiyyət kəsb edən meliorasiya və irriqasiya sahəsində kompleks tədbirlər həyata keçirilib.

Babək hazırda muxtar respublikada bir sənaye rayonu kimi də tanınır. Burada 40 adda sənaye məhsulu istehsal olunur. Bu gün rayon mərkəzi, kənd yaşayış məntəqələri tikinti-quruculuq tədbirlərinin gur şöləsinə bürünüb.

Babək rayonunda inşa olunan 87 meqavat gücə malik Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərindəki 4,5 meqavat gücündə elektrik stansiyası, həmçinin ötən il istifadəyə verilən Naxçıvan Günəş Elektrik Stansiyası muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Muxtar respublikada Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi rayon əhalisinin gündəlik yaşayış səviyyəsində, onların maddi rifah halının yaxşılaşmasında, qəsəbə və kəndlərimizin mənzərəsinin dəyişilməsində öz əksini tapır. Bütün bunlar müstəqilliyimizin bəhrələridir.

* * *

## Culfa rayonu



***Oktyabrın 17-də Culfa rayon ictimaiyyətinin nümayəndələri Culfa şəhərindəki Şəhidlər abidə kompleksinin və müstəqilliyimizin memarı ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar.***

Müstəqilliyimizin bəhrələri Culfa rayonunda da görünməkdədir. Ötən dövrdə rayonun yaşayış məntəqələri hədsiz dərəcədə dəyişib, gözəlləşib. 1 şəhər və 22 kənd yaşayış məntəqəsini özündə birləşdirən Culfa rayonunda həyata keçirilən tikinti-quruculuq tədbirləri nəticəsində 19 kənddə kompleks quruculuq işləri görülüb, müasir tələblərə cavab verən 1 rayon Mərkəzi Xəstəxanası, 22 məktəb, 11 həkim ambulatoriyası, 8 feldşer-mama məntəqəsi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq əhalinin istifadəsinə verilib. Bundan əlavə, rayon mərkəzini kənd yaşayış məntəqələri ilə birləşdirən yollar yenidən qurulub, onlarla hektar sahədə meyvə bağları salınıb, yerli xammala əsaslanan istehsal müəssisələri fəaliyyətə başlayıb. Bu gün muxtar respublikanın digər bölgələri kimi, Culfa rayonu da özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Həyata keçirilən tədbirlər müstəqilliyimizin qorunub saxlanılmasında əvəzedilməz xidmətlər göstərmiş dahi şəxsiyyət Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsində mümkün olub.

* * *

## Sədərək rayonu

***Müstəqillik qazandığımız ötən 25 il ərzində Sədərək rayonu da böyük bir inkişaf yolu keçib. Bu rayonun yaradılması, rayon ərazisində bir çox yaşayış massivlərinin salınması, inkişafı və tərəqqisi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.***



Bu gün rayon mərkəzi olan Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulub. Sədərəklilər bu gün ulu öndərimizin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, məhz bu rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Dünən müstəqilliyimizin qorunub saxlanılması üçün canlarından keçən şəhidlərimiz xatırlanıb, rayon ictimaiyyətinin nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər. Sədərəklilər müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsində misilsiz xidmətlər göstərmiş ümummilli liderimiz Heydər Əliyevin Heydərabad qəsəbəsindəki büstü önünə gül-çiçək dəstələri qoyublar, ulu öndərimizin əziz xatirəsini yad ediblər.

**Xəbərlər şöbəsi**

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Rauf Əliyev

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1050. Sifariş № 772